**Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin, Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsinin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyəti vəsiqəsinin**

**Spesifikasiyası**

**Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 372 nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi və Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi (bundan sonra «şəxsiyyət vəsiqəsi» adlandırılacaq) yüksək keyfiyyətli şəffaf plastik örtük (laminat) arasında yerləşdirilmiş və beynəlxalq standartlara uyğun şəxsiyyət vəsiqəsinin istehsalında istifadə olunan teslin adlanan materialdan ibarətdir.

Teslin çap üçün əlverişli olan sintetik, donuq materialdır. Yüksək temperatura və kimyəvi maddələrin təsirinə müqavimətlidir. Rütubətə davamlıdır, fototəsvirin keyfiyyətini yüksəltməklə yanaşı onun saxtalaşdırılmasının qarşısını almaqda xüsusi keyfiyyətə malikdir.

Şəxsiyyət vəsiqəsi şəffaf plastik arasında teslindən istifadə olunmaqla isti sıxma üsulu ilə hazırlanır.

Şəxsiyyət vəsiqəsinin qalınlığı 0,76 mm-dir. günclər 3,18 mm radius boyunca əyilmişdir. İKAO-nun tələblərinə uyğundur.

Optik nəzarət oxunuşu maşınında və ya maqnit xətt oxuyucusu olan maşında oxuna bilmək üçün şəxsiyyət vəsiqəsinin səthi hamardır.

Şəxsiyyət vəsiqəsinin ön hissəsinin altı boyunca maşınla oxuna bilən iki zolaqlı Optik Nəzarət Oxusu hissəsi vardır.

Xüsusi mühafizə dərəcələri olan bu sənəd müasir texniki imkanlar vasitəsi ilə saxtalaşdırıla, yaxud surətçıxarma üsulu ilə hazırlana bilməz.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2929-2930.**